# LERİK: xəyalların gerçəkləşdiyi dağlar diyarı



***Paris muzeylərini bəzəyən eksponatlar arasında Lerikin Vedi kəndindən aparılmış mədəniyyət nümunələri də var. XVIII-XIX əsrlərdə qədim yaşayış məskəni olan Lerik dağlarını tədqiq edən arxeoloqlar buranı "arxeoloji cənnət" adlandırıblar...***

*Lerik Azərbaycanın ən ucqar rayonlarından biridir. Həm dağlıq ərazidir, həm əsas magistral yollardan uzaqdır. Amma buna baxmayaraq, burada həyat qaynayır, inkişaf gedir, rayonun sosial-iqtisadi göstəriciləri də yaxşıdır. Burada yaradılan müasir infrastruktur insanlara xidmət göstərir və rayonun gələcək iqtisadi, sosial inkişafını təmin edir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Bu gün Lerik həm də yerüstü cənnət məkanı kimi tanınır. Amma vaxt vardı, yolun-yönün olmaması üzündən qonaqlar Lerikə yalnız yaz-yay aylarında gələ bilirdilər. Gözdən-könüldən uzaq bölgənin işığı, qazı da yox idi. Yalnız 70-ci illərdə, ulu öndər Heydər Əliyevin sayəsində Lerikin də üzü gülməyə başlayıb. Müstəqillik illərində isə dağlar diyarı daha da gözəlləşib, əhalinin həyat şəraiti xeyli yaxşılaşıb. İndi ən böyük çətinliklər belə aradan qalxır. Rayona ilboyu asanlıqla gedib-gəlmək olur.



Lerikdə Yer kürəsindəki 11 iqlim qurşağından 8-i duyulur. Havası dərdlər dərmanıdır. Xalq şairi Süleyman Rüstəm deyib ki, Lerikin saçlarını Savalanın yelləri darayır. İllər öncə Lerikdə ekspedisiyada olan Leninqrad bioloqları isə öz heyranlıqlarını belə ifadə ediblər: "Burada təbiətin çox qəribə xüsusiyyəti var – hava hər kilometrdə dəyişir..." Bu gözəl diyarın payızı daha füsunkar olur. Meşələr sarının, çəhrayının, narıncının saysız çalarları ilə bəzənib-düzənir. Dağların başında qar ağarır.

Lerik həm də igidlər yurdudur. Buranın qadınları da kişilərdən geri qalmırlar.

...Dahi fransız yazıçısı və səyyahı Aleksandr Düma Lerik meşələrini gəzərkən maraqlı eskizlər çəkib, bu diyarın gözəlliklərini vəsf edib və əhalinin qonaqpərvərliyini qələmə alıb. A. Düma Cəngəmiran kəndində olarkən eşitdiyi maraqlı bir hadisəni də gündəliyinə köçürüb: "Bir kişi arvadı ilə kəndin qurtaracağındakı meşədə işləyirmiş. Birdən onlar pələngə rast gəlirlər. Pələng kişinin üstünə yeriyir. Pələngin həmləyə hazırlaşdığını görən arvad əlindəki balta ilə onun başına zərbə endirərək pələngi öldürür..."

...Bakıda tanış olub haqqında teleoçerk hazırladığım Sosialist Əməyi Qəhrəmanı Xanoğlan Bayramov Neft daşları möcüzəsini yaradanlardan idi. Fəxri ada layiq görüləndə cəmi 25 yaşı olub. Dostları danışırdı ki, qəfil qopan qasırğa estakada quran inşaatçıları sərt sınağa çəkəndə Xanoğlan fəhlələri ölümün pəncəsindən qopara bilsə də, onların traktoru dənizə düşmüşdü. Bundan bir müddət sonra Xanoğlan hansı yollasa həmin traktoru dənizin təkindən çıxara bilmiş və dağlar qoynundakı (!) doğma kəndlərinə gətirə bilmişdi.

İkinci dünya müharibəsində Lerikdən 6500 nəfər iştirak edib. Onlardan 1584 nəfəri həlak olub, 3314 nəfəri müxtəlif dərəcədə yaralanıb. 600 nəfərdən çox lerikli orden və medallarla təltif edilib. Böyük Vətən müharibəsi veteranlarının yolunu davam etdirən 140 nəfərdən çox lerikli gənc Qarabağ döyüşlərində şəhid olub, onlardan 5 nəfəri – Valeh Müslümov, Rövşən Abdullayev, Fərhad Ağayev, Fəxrəddin Şahbazov və Əsgər Əliyev "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Hər bir şəhidin xatirəsi Lerikdə əziz tutulur.




İllərdir ki, dağlar diyarı Lerikin uğur hekayələri bir-birini əvəz edir. Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov söhbət zamanı Lerikdə dinamik inkişafın təmin olunduğunu, yeni iş yerlərinin açıldığını və əhalinin güzəranının daha da yaxşılaşdığını iftixarla qeyd etdi. O dedi ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi islahatlar bu ucqar rayonun da sosial-iqtisadi inkişafına ciddi təsir göstərib. Dövlət başçısının bu il oktyabrın 15-də Lerikə növbəti tarixi səfəri bunun bariz nümunəsinə çevrilmişdir. Möhtərəm Prezidentimizin rayonda iqtisadiyyatın yenilənməsinə, müasir infrastrukturun qurulmasına, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönələn obyektlərin açılışında iştirakı, ictimaiyyət nümayəndələri ilə görüşü, orada söylədiyi proqram xarakterli nitqi, rayonun gələcək inkişafı ilə bağlı sərəncamlar imzalaması bir daha dövlətin hər bir bölgəyə, vətəndaşa diqqət və qayğı ilə yanaşdığını göstərir.

Dövlət başçısının Lerikə səfəri zamanı rəmzi lentini kəsdiyi Piran-Hamarat-Vijaker avtomobil yolu 9 min 100 nəfərin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 26 kilometr olan ikizolaqlı yolun hərəkət hissəsinin eni 6 metrdir. Bu yol müasir səviyyədə, texnoloji ardıcıllığa uyğun və bütün tələblərə cavab verməklə yenidən qurulub. Açılış zamanı dövlət başçısına Lerikdə başqa bir yeni yolun da tikildiyi barədə məlumat verilib. Bu, Noda-Şingədulan-Xanagah avtomobil yoludur. Otuz min nəfərin yaşadığı və 50 yaşayış məntəqəsini birləşdirən bu yolun tikintisi üçün Prezidentin 2013-cü ildə imzaladığı sərəncamla Lerik Rayon İcra Hakimiyyətinə ilkin olaraq 2 milyon manat, 2014-cü ildə imzalanan sərəncamla isə əlavə olaraq, 7 milyon manat ayrılıb. 2016-cı ildə imzalanan digər sərəncama əsasən isə yolun tikintisinin davam etdirilməsi məqsədilə Avtomobil Yolları Dövlət Agentliyinə daha 6,6 milyon manat vəsait ayrılıb və yolun tikintisi başa çatdırılıb. Ümumi uzunluğu 36 kilometr olan yolun inşası zamanı iki körpü keçid də tikilib. Bu rahat yollar bölgədə sərnişin və yük daşınmasını xeyli yaxşılaşdırır. Həmçinin yerli və xarici turistlərin ərazidəki istirahət mərkəzləri, tarixi mədəniyyət abidələri ilə də tanış olmalarına şərait yaradır.

Su aydınlıqdır, – deyiblər. Azərbaycan rəhbəri "Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak edərək camaatı su aydınlığına qovuşdurub və layihəni gözəl hadisə adlandırıb. Şəhər əhalisinə içməli suyun verilməsi üçün uzunluğu 55 min 55 metr olan içməli su şəbəkəsi tikilib, 1821 ev su sayğacı ilə təmin edilərək bu şəbəkələrə qoşulub.

Lerik şəhərinin mərkəzindən bir kilometr cənubda yenicə işə salınan 16,5 MVt-lıq elektrik stansiyası isə ildə 75 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək imkanına malikdir. Müqayisə üçün deyək ki, bu, Lerik və Yardımlı rayonlarının elektrik enerjisinə tələbatından 40 faiz çoxdur. Bununla yanaşı, regionun ucqar nöqtələrində gərginlik səviyyəsinin normadan aşağı düşməsi hallarının qarşısı alınacaq.

Rayon mərkəzində Bayraq Muzeyinin istifadəyə verilməsi də əlamətdar hadisədir. Bu işlər Azərbaycanın dövlət atributlarına ən yüksək səviyyədə göstərilən diqqətin bariz nümunəsidir. Belə muzeylər dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda, əsl vətənpərvər kimi tərbiyə olunmasına mühüm töhfə verir.

Dağlar diyarında balaca soydaşlarımızın sağlam və xoşbəxt böyüməsi naminə atılan addımlar da təqdirəlayiqdir. Elə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş və Prezident İlham Əliyevin xeyir-duası ilə açılmış 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasında yaradılan şərait heyranlıq doğurur. Bu layihələr Fondun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı üzrə uşaqların təlim-tərbiyəsinin, onların bilikli və savadlı yetişməsinin prioritet istiqamət olduğunu bir daha sübut edir.



Ölkə rəhbərinin rayona tarixi səfərindən dərhal sonra Lənkəran-Lerik avtomobil yolunun, Lerik şəhərində 48 mənzilli binanın və Orand kəndində məktəbin tikintisinə milyonlarla manat vəsaitin ayrılması barədə sərəncamlar imzalaması dağlar diyarının daha sürətli tərəqqisinə təkan verəcək. Bu günlərdə rayona gedərkən dağların necə yarılıb yolun genişləndirildiyinin canlı şahidi olduq.

Fərəhli haldır ki, bu il də rayonda aparılan abadlıq-quruculuq işləri səngiməyib. Əsasən, kənd təsərrüfatı rayonu olan Lerikdə əhalinin başlıca məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Son illərdə vətəndaşlarla aparılmış maarifləndirmə və izahat işləri nəticəsində əkin sahələrinin dövriyyəsi xeyli artıb. 3158,91 hektar sahədən 6828,6 ton, keçən ilə nisbətən 178,5 ton çox taxıl və digər dənli-paxlalı məhsul tədarük edilib, 1655 hektar sahədə herik şumu aparılıb, 481 hektar sahədə buğda səpini həyata keçirilib. Həmçinin 19 kənd inzibati ərazi dairəsi üzrə 27 hektar sahədə "Virciniya" və "İmmuna" tütün sortları əkilib. Məhsulun yığımı və qurudulması təmin edilib.




Bu günlərdə "IDEA" İctimai Birliyinin, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü ilə Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə aztəminatlı ailələrin maddi rifahının yaxşılaşdırılması məqsədilə Cəngəmiran kəndində 2 hektar sahədə meyvə bağı salınıb. Aksiyada 200-dən çox rayon gənci ilə bərabər, sözügedən birlik və təşkilatların təmsilçiləri də iştirak ediblər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yeddi ildən bəri yaradılaraq fəaliyyət göstərən "IDEA"-nın hədəflərindən biri də belə xeyirxah addımlar atmaqdır. İctimai birliyin xətti ilə respublikamızın bütün rayonlarında, o cümlədən Lerikdə də bir sıra işlər həyata keçirilib: on minlərlə meşə və meyvə ağacı əkilib, hazırda da həmin ağaclara aqrotexniki qaydada qulluq göstərilir.

Nəcib təşəbbüsə qoşulan gənclərin, idarə və müəssisə kollektivlərinin iştirakı ilə meşəətrafı ərazilərdə, Lənkəran-Lerik, Noda-Şingədulan, Lerik-Kəlvəz avtomobil yollarının kənarlarında, idarə, müəssisə və təşkilatların ərazilərində ağaclar əkilib. Bu ilin yazında "İDEA" və "Regional İnkişaf" ictimai birliklərinin səyi ilə rayonun Divağac kəndində bir hektar sahədə alma və fındıq bağı salınaraq təmənnasız olaraq şəhid ailəsinə təhkim olunmuşdu. İcra hakimiyyətinin təşəbbüsü ilə isə rayona məhsuldar fındıq tingləri gətirilərək aztəminatlı ailələrə paylanıb. Artıq rayonda 50 hektardan yuxarı fındıq bağı var. Budəfəki aksiyada salınan 312 ağaclıq bağ isə istifadə və qulluq üçün 3 aztəminatlı ailəyə verilib.

Rayonda həmsöhbətimiz olan hər kəs dönə-dönə vurğuladı ki, sosial-iqtisadi inkişaf, yeni obyektlərin açılması hamının ürəyindən xəbər verir. Dövlət qulluğu veteranı Qəhrəman Əliyev Lerikə dövlət qayğısını yüksək dəyərləndirdi, bir vaxtlar əlçatmaz olan quruculuq işlərinin heyranlıq doğurduğunu söylədi və rayon rəhbərliyinin yaradıcı səylərini ürəkdən təqdir elədi. Babagil kənd sakini Ağasəlim Vəliyev rayonda kommunal xidmətlərin səviyyəsinin yüksəldiyini, sosial məsələlərin ard-arda həllini tapdığını vurğuladı, Rövşən müəllimin tez-tez yerlərdə görüşlər keçirməsinin əhali arasında razılıqla qarşılandığını bildirdi...

Şairlər Leriki obrazlı şəkildə Talış dağlarının tacına bənzədirlər. Bu, kənardan belə görünür. Reallıq isə dağlarda həyatın çətinliklərini diqtə edir. Burada bir yolu çəkmək, bir binanı inşa eləmək aran yerindəkindən ikiqat artıq zəhmət hesabına başa gəlir. Dözüm, fədakarlıq, yurdsevərlik hissi olmasa, pillə-pillə irəliləmək, zirvə-zirvə ucalmaq yalnız xəyal kimi görünər. Fərəhli haldır ki, Lerikdə xəyalların gerçəkləşməsi naminə qətiyyətli addımlar atılır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***